Bakı Dövlət Universitetinin baş müəllimi Əmirli İsrail Calal oğlu

## Natural təsərrüfat

İcma dövründə və Quldarlıq quruluşunun ilkin mərhələsində əsasən natural təsərüfat (bazarla əlaqəsi olmayan təsərüfat) üstünlük təşkil edirdi. Natura-məhsul, natural təsərüfat, məhsulu istehlakçının özünün istehlakı üçün istehsal etdiyi təsərüfat formasıdır.

Demək olar ki, kəntlərdə və şəhərlərdə əmtəə-pul münasibətlərinin inkişaf etməməsi icma dövündə və Quldarlıq dövrünün ilk mərhələsində natural təsərüfatın geniş yayılmasında başlıca amillərdən biri idi. Lakin, sonrakı dövrlərdə kənd təsərüfatının müxtəlif sahələrinin, bununla yanaşı sənətkarlığın və ticarətin inkişafı natural təsərüfatın əvəzlənməsinə səbəb oldu. Qismən natural təsərüfatın mövcudluğu meydana çıxdı.

Feodalizm formasiyasında şəhərlərdə qismən natural təsərüfat başlıca təsərüfat sahəsinə çevrildi. Əmtəə-pul münasibətləri nisbətən şəhərlərdə inkişaf etməyə başladı. Buna səbəb qismən sənətkarlıq və ticarətin o cümlədən, əmtəə və pul münasibətlərinin inkişafı şərait yaratdı .

Bu zaman, əsasən kəntlərdə natural təsərüfat üstünlük təşkil edirdi. Feodalizm dövründə, yaşayış evlərinin primitivliyi, insan resurslarının azlığı, hər yerdə eyni məhsulların istehsal olunması, məhsulların çoxçeşidli olmaması, bazar münasibətlərinin zəif inkişaf etməsi, iş sahələrinin çox olmaması, əmtəə-pul münasibətlərinin zəif inkişaf etməsi, yol infrastrukturunun mövcud olmaması bazarla əlaqəsi olmayan təsərüfatın davam etməsinin başlıca dayaqlarından idi. Bu amil həm də feodalizmin daha da möhkəmlənməsinə səbəb olan amillərdən idi. Bunun nəticəsində feodalizm münasibətlərinin eramızın ilk əsrlərində başlayaraq dünya dövlətləri içərisində daha da inkişaf etməsi, bu dövrdən başlayaraq, fərqli ölkələrdə torpaq üzərində məhdud mülkədarlığın (feodalizmin) meydana çıxmasına

səbəb oldu. Natural təsərrüfat planetin əsasən iqtisadi cəhətdən zəif inkişaf etmiş bölgələrində (Asiya, Afrika və Latın Amerikası) hakim mövqeyə sahib oldu.

Lakin böyük coğrafi kəşflərdən sonra, təsərrüfat növlərində çoxçeşidlilik meydana gəldi ki, bunun nəticəsində bazar münasibətləri daha da inkişaf etdi. Əmtəə pul münasibətlərinin inkişafı isə natural təsərrüfatın aradan çıxmasına səbəb oldu. Artıq kapitalist formasiyası dövründə natural təsərrüfatın mövcud olması üçün lazım olan səbəblər aradan qalxmışdı.